# Qalib ölkəmizin vətənpərvər idmançıları böyük nailiyyətlərə imza atır

**Bu gün Azərbaycan beynəlxalq aləmdə idman ölkəsi kimi tanınır. Müasir gənclərin hərtərəfli formalaşması, vətənpərvər ruhda yetişdirilməsi dövlətin uğurlu gənclər siyasətinin əsas tərkib hissəsidir. Bütün bunlar ölkə başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanların, yüksək diqqət və qayğının nəticəsidir.**

Prezident İlham Əliyev bu il martın 17-də 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edərək onları əldə etdikləri yüksək nailiyyətlərə görə şəxsən təbrik etmişdir. Gənc idmançılarla keçirilən görüşdə Prezident vurğulamışdır ki, Azərbaycan idman ölkəsidir, həm böyüklər, həm gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda idmançılarımız öz gücünü, dövlətimizin qüdrətini nümayiş etdirirlər.

Bu gün Azərbaycanın idman ölkəsi kimi dünyada tanınması və bu sahədə qazandığı uğurlar, əldə etdiyi nailiyyətlər beynəlxalq idman ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirilir. Elə bir rayon və şəhər yoxdur ki, orada idman kompleksi, Olimpiya mərkəzi olmasın. İstər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə idmançılarımızın qələbələri, qazandıqları saysız-hesabsız medallar mədəniyyətimizin təbliğinə və vətənpərvərlik ruhunun yüksəlməsinə xidmət edir. Prezidentimiz cənab İlham Əliyev haqlı olaraq vurğulamışdır ki, "İdman qələbələri cəmiyyətimizin vətənpərvərlik ruhunu artırır, Azərbaycanı dünyada güclü idman ölkəsi kimi tanıdır, ölkəmizi təbliğ edir".

Bu il martın 20-də ölkə başçısı cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə işğaldan azad olunan torpaqlarda ilk idman tədbirini Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası təşkil edib. Suqovuşana səfəri zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təlim-məşqi izləyiblər. Yeni bazaların qurulmasında əsas məqsəd yeniyetmə və gənclər arasında bu idman növünə marağı artırmaq, idmanın kütləviliyini təmin etmək və inkişafına nail olmaqdır. Sözsüz ki, işğaldan azad olunmuş ərazilərdə geniş idman infrastrukturu da yaradılacaq, Qarabağda beynəlxalq idman yarışları təşkil olunacaq.

Aprelin 8-də Prezident cənab İlham Əliyev Macarıstanın paytaxtı Budapeştdə keçirilmiş Avropa çempionatında güləşçilərimizin yüksək nailiyyətləri ilə əlaqədar idmançıları qəbul etmişdir. Xatırladaq ki, sözügedən yarışlarda Azərbaycan güləşçiləri ümumilikdə 16 - 3 qızıl, 6 gümüş və 7 bürünc medal qazanıb. Həm sərbəst, həm də yunan-Roma güləşi üzrə milli komandalarımız komanda hesabında Avropa çempionu olub ki, iki komandamızın eyni vaxtda Avropa çempionu olması güləş tariximizdə yeni rekorddur. Bu, bir daha onu göstərir ki, Azərbaycanda idman uğurla inkişaf edir. Görüşdə geniş nitqlə çıxış edən dövlət başçımız əldə olunan nailiyyətlərlə bağlı idmançıları, onların məşqçilərini və Azərbaycan Güləş Federasiyasını təbrik etmiş, iki il sonra keçiriləcək Yay Olimpiya Oyunlarında da bənzər uğurların göstəriləcəyinə əminliyini ifadə etmişdir.

Böyüklər arasında sərbəst və yunan-Roma güləşçilərinin komanda hesabında Azərbaycan millisinin 2022-ci il Avropa çempionu olması ilə əlaqədar Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Güləş Federasiyasına 1 milyon manat ayrılmışdır. Bu, idmana göstərilən diqqət və qayğının sadəcə bir nümunəsidir. Belə nümunələr isə sadalamaq mümkün olmayacaq qədər çoxdur.

44 günlük İkinci Qarabağ müharibəsində dəmir yumruq kimi birliyimiz dünyaya səs saldı. Mübaliğəsiz deyə bilərik ki, müzəffər ordumuzun əfsanəvi qəhrəmanlığı və modern döyüş bacarığını nümayiş etdirməsi bütün dünyada heyrətlə qarşılandı. Vətənə sevgi, düşmənə nifrət hissi ilə yetişən gənc nəsil torpağımızı işğalçılardan azad etdi. Torpaqlarımızın azad edilməsində bütün nəsillərin nümayəndələri uğurlu fəaliyyət göstərib, ancaq döyüşdə iştirak edənlərin mütləq əksəriyyəti gənclərdir. Onlar vətənpərvərlik və fədakarlıq göstərərək canlarından keçdilər, şəhid, qazi oldular, qəhrəmanlıq göstərdilər və tarixi ədaləti bərpa etdilər. Gənclər bükülmüş belimizi dikəltdilər, mənfur düşmənin saxta mifini heç etdilər. Belə vətənpərvər, qəhrəman gəncləri olan Vətən heç vaxt yenilməyəcək, daim öz şan-şöhrətini və qüdrətini qoruyub saxlayacaqdır. İnanırıq ki, vətənpərvər gənclərimiz mənfur düşməndən azad etdikləri müqəddəs torpaqların bərpa edilməsində və çiçəkləndirilməsində də, burada müasir infrastrukturun qurulmasında da böyük xidmət və rəşadət göstərəcəklər.

Ali Baş Komandanın da vurğuladığı kimi, bu gün biz qalib gəlmiş ölkəni təmsil edirik. Biz müstəqil ölkə kimi böyük idman yarışlarına qatılanda torpaqları işğal edilmiş ölkə kimi çıxış edirdik. Sübut etməli idik və sübut edirdik ki, bizim gücümüz də var, iradəmiz də var və beynəlxalq idman arenalarında göstərdiyimiz məharət, güc özünü döyüş meydanında da göstərəcək.

Məhz bu vətənpərvərlik hissləri, Vətənə olan sevgi, bağlılıq Vətən müharibəsində əsas rol oynadı. Bu da vətənpərvərlikdən irəli gələn bir amil idi. Bütün bunlar Azərbaycanın müstəqilliyinin bərpasının ilk illərində ulu öndər Heydər Əliyevin təməlini qoyduğu idman siyasətinin hazırda Prezident cənab İlham Əliyev tərəfindən uğurlu davamı və nəticəsidir.

**Müşfiq MİRZƏ,**
**"Respublika"**

**Respublika.- 2022- ci il.- 17 aprel.- S. 3.**